

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 iyul 2024-cü il №56 (2867) https://mod.gov.az Qiymәti 30 qəpik

## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında parlaq qələbə ilə Olimpiya çempionu adını qazanan cüdoçu Hidayət Heydərova zəng ediblər.

Dövlətimizin başçısı və birinci xanım Olimpiadanın cüdo yarışlarında parlaq qələbə qazanması münasibətilə Hidayət Heydərova təbriklərini çatdırıb, ona gələcək idman fəaliyyətində yeni qələbələr arzulayıblar.

Hidayət Heydərov telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına və birinci xanıma təşəkkürünü bildirib, Olimpiadada Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmaqdan və Dövlət Himniminin səsləndirilməsindən qürur duyduğunu vurğulayıb. O, yeni uğurlar əldə etmək üçün bundan sonra da səylə fəaliyyət göstərəcəyini deyib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Hidayət Heydərovun Olimpiya çempionu olması ilə bağlı paylaşım edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Hidayət Heydərovun Olimpiya çempionu olması ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əhsən! Əhsən! Əhsən, Hidayət! Təbrik edirəm! Yaşasın Azərbaycan!".

*Reportaj*

# "Doğma Qarabağımızın səmalarında uçmaqdan qürurlanıram"



*44 günlük Vətən müharibəsi Azərbaycan tarixinə qızıl hərflərlə həkk olundu. Döyüşlərdə hər bir hərbi qulluqçu bu tarixi öz canı, qanı bahasına yazdı. Müharibədə hər kəs öz üzərinə düşəni layiqincə yerinə yetirdi. Tankçılar, topçular, motoatıcılar düşmən üzərinə od-alov ələdilər, helikopterlər, təyyarələr də səmadan düşmənə göz açmağa imkan vermədi. Qazanılan bu zəfər heç vaxt unudulmayacaq, gələcək nəsillərə ötürüləcək. Qəhrəmanlıq salnamələri yazılacaq, hərbçilərimizin keçdikləri döyüş yolları dərsliklərdə gənc nəsillərə nümunə göstəriləcək.*

"N" hərbi hissəsində Vətən müharibəsi zamanı işğaldakı torpaqlarımızın səmalarında uçaraq düşmənə saysız-hesabsız zərbələr endirən hərbi təyyarəçilərimizin davamçıları olan gənc pilotlarımızla tanış olduq. Dəmir qanadlı şahinlərimiz bizləri maraqlandıran sualları cavablandırdılar.

Zabit V.Mərdanlı 2001-ci ildə Kürdəmir rayonunda anadan olub, məsuliyyətli hərbçilərdəndir. Hələ Kürdəmir rayonunun Dəyirmanlı kənd orta məktəbində təhsil aldığı zaman təyyarəçi olmaq qərarını verib. İlk dəfə hərbi formanı 2015-ci ildə geyinib. Əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsilini davam etdirib. 2022-ci ildən zabit kimi ordu sıralarında xidmətə başlayıb.

"İlk uçuşu necə xatırlayırsan?" sualına "İlk sərbəst uçuş hər bir təyyarəçinin yaddaşına həkk olunan bir hadisədir" deyə zabit söhbətə başladı. "Heç vaxt unuda bilmərəm. Həmin hissi sözlərlə ifadə etmək mümkün deyil. Təyyarəni havaya qaldırdıqda artıq bütün məsuliyyətin səndə olduğunu anlayırsan. Çünki təyyarənin havaya qaldırılmasında, idarə edilməsində, rahat şəkildə yerə endirilməsində artıq birbaşa cavabdeh şəxs sənsən. Bu çox məsuliyyətli bir işdir. Bu səbəbdən bizə olan etimadı doğrultmaq üçün daim öz üzərimizdə çalışırıq. Seçdiyimiz şərəfli və çətin yolda əsl hərbçi-təyyarəçi olmağın sirlərini bizə öyrədən təlimatçılarımıza, komandirlərimizə minnətdarıq", - deyə zabit bildirdi.

Yardımlı rayonunun Çayüzü kəndində anadan olan zabit K.Nəsirli 2018-2022-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb. Zabit K.Nəsirli Hərbi Hava Qüvvələrinin Azərbaycan Ordusundakı fəaliyyətindən danışdı: "Mütəxəssislərimizdən bu ixtisasın incəliklərini öyrənmişik və bu gün də öyrənməyə davam edirik. Azərbaycan Ordusu, həqiqətən də, güclü ordudur. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordumuz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən daha da gücləndirilib. Müzəffər Ali Baş Komandanın orduya göstərdiyi diqqət və qayğısı nəticəsində bu gün regionun ən güclüsüyük. Ordumuzu güclü edən təkcə arsenalımızda olan müasir silah və texnikalar deyil, şəxsi heyətin Vətənə olan sevgisidir.

Gənc zabit kimi mən də xidmətə başladığım ilk gündən rəhbərliyin diqqət və qayğısını öz üzərimdə hiss etmişəm. Xidmətimiz dostluq, qardaşlıq və nizamnamə çərçivəsində təşkil olunub. Təcrübəli komandirlərimiz, zabitlərimiz daim öz bilik və bacarıqlarını mənimlə bölüşüb, uçuşun, yaxşı pilot olmağın sirlərini öyrədiblər. Gənc yaşda qarşıya qoyulan tapşırıqların öhdəsindən uğurla gəlməyi təlimatçılarıma borcluyam. Onların öyrətdikləri incəliklər sayəsində uçuşları rahatlıqla həyata keçirə bilirəm".

(Ardı 3-cü səhifədə)

# Vətən müharibəsi şəhidinin xatirəsinə həsr olunan anım tədbiri keçirilib




Azərbaycan Hərb Tarixi Muzeyində torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Vətən müharibəsi şəhidi Camal İsmayılovun xatirəsinə həsr olunan "Vətən Sizi Unutmaz" adlı anım tədbiri keçirilib.

Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşlarının iştirak etdiyi mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edənlər şəhidimizin şərəfli həyat və döyüş yolundan danışıb, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun Vətən müharibəsində qazandığı tarixi qələbədən, bu şanlı Zəfərin qazanılmasında igid oğullarımızın göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəhid Camal İsmayılovun ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim



uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.

# Hərbi institutun kursantları ilə komando hazırlığı üzrə məşğələlər keçirilir



2024-cü ilin tədris planı və proqramına uyğun olaraq, Heydər Əliyev adına Hərbi İnstitutun kursantları ilə komando hazırlığı üzrə məşğələlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlər zamanı kursantlara mühəndis kəşfiyyatı üsullarının aparılması qaydaları öyrədilir, eləcə də onların fərdi hazırlığı və döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə praktiki çalışmalar yerinə yetirilir.

Hərbi institutun kursantları qarşıya qoyulan tapşırıqların icrası zamanı fəallıq nümayiş etdirirlər.



# Hərbi xidmətdə qazanılan vərdişlər hər zaman faydalıdır



Tarix boyu əsgərlər Vətənin, xalqın müdafiəsində əsas rol oynayıblar. Bu o anlama gəlir ki, hərbi qulluqçu sadəcə hərbi geyimli şəxs deyil, cəsarət, fədakarlıq və andına sadiqlik rəmzidir. Onların həyat hekayələri igidlik və möhkəmlik, eləcə də həm müharibə, həm də sülh dövrlərində qarşılaşdıqları gündəlik çətinliklərlə doludur. Hərbçi peşəsini seçmək, bu yolda mətin addımlarla irəliləmək uşaqlıqda yaranan arzuların gerçəkləşməsi deməkdir. Kiçik yaşlarından hərbi mundiri geyinmək arzusunu bəsləyən daha bir hərbi qulluqçumuz da müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nail Nağıyevdir.

Bakı Kompüter Kollecini bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanan Nail, komandirlərinə bildirir ki, xidmətini müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirmək istəyir. Bu qərarın həyatında böyük mahiyyət daşıdığını qeyd edən Nail, "Hərbi həyat insanın xarakterini və dünyagörüşünü formalaşdıran bir təcrübədir, məktəbdir", söhbətə başladı.

- Xidmət dövründə aşılanan hərbi intizam, məsuliyyət, fədakarlıq və liderlik qabiliyyəti insana həyatın hər dönəmində yardımçı olur. Günün nizam qaydalarına uyğun olaraq qurulan ciddi xidmət rejimi, fiziki hazırlığa üstünlük və qarşıya qoyulan müxtəlif tapşırıqlar isə həm fiziki, həm də psixoloji olaraq insanı daha möhkəm, daha sağlam edir. Kiməsə hərb peşəsi çətin gələ bilər, lakin olduqca şərəfli və qürurverici peşə olduğunu da vurğulamalıyam.

Bundan əlavə, ordu sıralarında xidmət hər bir fərd üçün unikal imkanlar da yaradır. Burada insan komandada fəaliyyət göstərməyi, özünü lider kimi nümayiş etdirməyi, istənilən vəziyyətdə düzgün qərarlar qəbul etməyi öyrənir. Hərbi həyatın formalaşdırdığı dostluq isə ömrün sonunadək sürdüyünü hər birimiz gözəl bilirik. Bu haqda neçə kitab yazılıb, neçə mahnı bəstələnib.

Bir sözlə, qeyd etmək istəyərdim ki, hərbi xidmət zamanı hərbi qulluqçunun yiyələndiyi bilik və vərdişlər ona mülki həyatda da çox faydalı olur.




Öyrəndik ki, kiçik çavuş Nail Nağıyev hərbi xidməti ilə yanaşı həm də 2011-ci ildən futbol hakimi olaraq da fəaliyyət göstərir. Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) və beynəlxalq dərəcəli FİFA referisidir. 2015-ci ildə Türkiyədə keçirilən FİFA seminarı, 2017-ci ildə İsçveçrədə keçirilən UEFA-nın Hakimlik Mükəmməlliyi Mərkəzi (CORE) kursları və digər beynəlxalq tədbirlərin iştirakçısıdır. Hal-hazırda böyük futbol və çimərlik futbolu üzrə oyunlarda baş hakim kimi iştirak edir.

Onu da qeyd edək ki, Nail baş hakim olaraq ölkəmizin Premyer Liqa, 1-ci Divizion və kubok oyunlarında iştirak etməklə yanaşı, Avro Çimərlik Futbol Liqasının (Euro Beach Soccer League Georgia 2024) qrup və final qarşılaşmalarında iş başında olub. Bu ilin may ayında keçirilən Müdafiə Nazirliyinin baş idarə və idarələri arasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunan minifutbol turniri oyunlarını məhz kiçik çavuş Nail Nağıyev idarə edib.

Nail, hərbi xidmət ilə futbol hakimliyinin oxşar cəhətləri olduğunu qeyd edərək: "Hər iki peşə yüksək dərəcədə həyəcan doludur. Həm hərbçi olaraq, həm də referi olaraq hər kəsin səndən gözlədiyi xüsusiyyətlər var. İntizamlı olmalı, xırda detallara diqqət yetirməli və hər zaman düzgün qərar verməlisən. Bu bacarıqlara sahib olduğun zaman hər işin öhdəsindən müvəffəqiyyətlə gəlmək mümkündür.

Hərbi xidmət mənə məsuliyyətli olmağı, özünəinamlı olmağı, komandada işləməyi öyrədir. Bu bacarıqlar hər oyun situasiyalarının sürətli təhlili və ədalətli qərarlar tələb etdiyi futbol meydançasında çox faydalıdır. Öz növbəsində hakimlik mənə obyektivliyi və qərəzsizliyi - hərbi xidmətdə də vacib olan keyfiyyətləri inkişaf etdirməyə kömək edir.

Hərbi xidməti futbol hakimi işi ilə birləşdirmək prosesində aldığım dəstəyə və anlayışa görə rəhbərliyə səmimi təşəkkürümü bildirirəm. Göstərilən diqqət və qayğı hər iki sahədə uğurla inkişaf etməyə imkan yaranır", - dedi.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# "Doğma Qarabağımızın səmalarında uçmaqdan qürurlanıram"






**(Əvvəli 1-ci səhifədə)**

Şirvan şəhərində anadan olan zabit Ş.Əhmədov 2012-2015-ci illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. İllər sonra işğaldan azad olunmuş doğma Qarabağımızın səmalarında uçmaqdan qürurlandığını deyən zabit söhbətinə davam etdi. "Bu gün ordumuz ölkəmizin təhlükəsizliyini və suverenliyini qorumaq üçün ən müasir texnologiyalar ilə təchiz olunub, peşəkar kadrlarla komplektləşdirilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin mənsubları ölkəmizin hava məkanını müdafiə etmək üçün böyük bir məsuliyyət daşıyır və bu məsuliyyətin fərqində olaraq böyük səylə çalışırlar. Vətən müharibəsində əldə etdiyimiz qələbə xalqımızın iradəsinin və birliyinin simvolu oldu. Hərbi aviasiyamız bu müharibədə strateji üstünlük qazanmaq üçün həlledici bir rol oynadı. Təyyarələrimiz, pilotsuz uçuş aparatlarımız və helikopterlərimiz düşmənin hərbi infrastrukturuna və texnikasına sarsıdıcı zərbələr endirərək qələbəyə gedən yolu daha da yaxınlaşdırdı. Vətən müharibəsi zamanı ordumuzun digər mənsubları kimi, Hərbi Hava Qüvvələrinin də göstərdiyi şücaət və fədakarlıqlar tarixə qızıl hərflərlə yazıldı. Bir hərbçi olaraq bu gün doğma Qarabağımızın səmalarında uçuşlar yerinə yetirmək, həqiqətən, qürurverici hissdir. Biz hər zaman Vətənimizin müdafiəsinə hazırıq, ölkəmizin sülh və əmin-amanlıq şəraitində yaşaması üçün əlimizdən gələni edəcəyik".

Təbiidir ki, hərbi aviasiya dedikdə səhnəarxası olan texniki heyəti də unutmamalıyıq. Bunun üçün də hərbçi aviasiyamızın səmada təhlükəsizliyinin qarantı olan mühəndis heyətindən hərbi qulluqçu V.Əhmədovla həmsöhbət olduq. V.Əhmədov dedi: "Aviasiyada uçuş pilot tərəfindən icra olunsa da, əslində, təyyarənin səmaya qalxmasından tutmuş enməsinə qədər təhlükəsizliyin təmin edilməsində xeyli sayda insanın rolu vardır. Belə ki, uçuş prosesi komanda işidir. Onların hər biri öz vəzifəsinə uyğun olaraq fəaliyyəti təşkil edir, döyüş maşınlarını növbəti təhlükəsiz uçuşa hazırlayırlar. Təhlükəsizliyin təmini üçün də hər kəs öz vəzifəsinin öhdəsindən layiqincə gəlməyə borcludur. Burada ən xırda səhvə belə yer yoxdur. Bunun üçün də texnik və mühəndis heyətinin peşəkarlığı, əzmkarlığı sayəsində Hərbi Hava Qüvvələrində yüksək nəticəli uçuşlar həyata keçirilir".



Söhbətimiz başa çatdıqdan sonra gənc pilotlarımıza xidmətlərində uğurlar arzulayıb ayrıldıq.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# Döyüş hazırlığının əsası sıradır

*Döyüş hazırlığının ayrılmaz hissəsi olan sıra hazırlığının şəxsi heyətin intizamlı olmasında müstəsna rolu vardır. Yüksək intizamı olan bölmə isə qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə qadirdir.*



"N" hərbi hissəsində hərbi qulluqçuların sıra hazırlığı məşğələsində sıra vərdişlərini təkmilləşdirmələrinin şahidi olduq. Baş leytenant Ömər Əhmədovun nəzarəti altında əsgərlər müəyyən komandaları yerinə yetirirdilər. Zabitin kifayət qədər bacarıqlı və savadlı, seçdiyi peşəyə ürəkdən bağlı olduğu məşğələnin gedişatını izlədikcə hiss olunurdu. Müşahidələr də onu göstərdi ki, məşğələlər səmərəli keçir. Mövcud əyani vasitələrdən, tədris imkanlarından yetərincə bəhrələnən məşğələ rəhbəri dərs prosesində əsgərlərə hərbi bilikləri hərtərəfli öyrətməyə çalışırdı. Əsas məqsəd şəxsi heyətə döyüş vərdişlərini aşılamaq və ruh yüksəkliyi yaratmaqdır. Məşğələ bitdikdən sonra taqım komandiri ilə həmsöhbət olmaq imkanı qazandıq.

Sıra hazırlığının əhəmiyyətindən danışan zabit bildirdi ki, keçirilən dərslər əsgərlərimizə səliqəli və intizamlı olmağı aşılayır. "Təsdiq olunan məşğələ cədvəlinə uyğun olaraq hərbi qulluqçulara sıra hazırlığından məşğələlər keçirilir. Məşğələlərdə fəallıq göstərən əsgərlərimiz bilirlər ki, intizam sıradan başlayır. Ən əsası isə intizamlı ordu mütləq qələbə qazanır. 44 günlük Vətən müharibəsində olduğu kimi..."

Əsgər Yusir Qarazadə bildirdi ki, Vətənin əsgəri olmaq şərəflidir. "Biz qalib ordunun əsgəriyik. Döyüş hazırlığımızı yüksək səviyyədə saxlamaq üçün daim üzərimizdə çalışırıq. Xalqımızın hərbçilərə olan etimadı Vətən müharibəsində doğruldu. Bundan sonra da biz ərazi bütövlüyümüzün qorunmasında əlimizdən gələni əsirgəməyəcəyik".

İşğaldan azad olunan torpaqlarımızdan danışan əsgər Cahangir Novruzov bildirdi ki, Qarabağ füsunkar təbiətə malikdir. "Bir vaxtlar işğalda olan torpaqlarımız Ali Baş Komandanımızın rəhbərliyi ilə artıq azaddır. İndi orada yenidənqurma işləri aparılır. Artıq soydaşlarımız dədə-baba yurdlarına yenidən dönürlər. Biz də çalışmalıyıq ki, ordumuzun döyüş qabiliyyətini yüksək səviyyədə saxlayaq. Bunun üçün komandirlərimizin öyrətdiklərini dərindən mənimsəyirik. Qalib ordunun əsgəri olaraq hər an torpaqlarımızı düşməndən qorumağa hazırıq".

"Xidmətə gəldiyimiz ilk gündən komandirlərin diqqəti və qayğısı ilə əhatə olunmuşuq", - deyən və məişət şəraitindən söz açan əsgər Azər Mikayılov bildirdi ki, müasir standartlara cavab verən yataqxanamız, yeməkxanamız və sanitar-qovşaq bizim istifadəmizdədir. Valideynlərimiz əsgərlər üçün yaradılan şəraiti görəndə çox sevindilər. Çünki heç nəyə ehtiyacımız yoxdur.

Valideynlərimiz yaradılan şəraitə görə Müzəffər Ali Baş Komandanımıza və Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlıqlarını bildirirlər.

Ordu sıralarında xidmət edən, peşəsini sevən komandirlərimiz vətənpərvər gənclərimizlə söhbət etdikdən sonra bir daha əmin olduq ki, torpaqlarımızın müdafiəsi əmin əllərdədir.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# Döyüş postlarımız alınmaz qalalardır

*...Kənddən çıxıb üzü dağlara yön alırıq. Qarşımızdakı yüksəklik hündür olmasa da, aşağıdan çox sərt görünən yamaclı yüksəkliyə doğru uzanan dolanbac yolla avtomobilimiz ağır-ağır irəliləyir. Ətraf yaşıllıq və gül-çiçəkdir. Üz tutduğumuz mənzil on illərlə əsgərlərin durduqları mövqelərdir. İkinci Qarabağ müharibəsindən sonra 30 ilə yaxın sürən torpaqlarımızın işğalı sona yetdi. İkinci Qarabağ müharibəsindən sonra dünya ölkələrinin tanıdığı ölkəmizin ərazi bütövlüyü bundan sonra da mətinliklə qorunacaq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, əminik ki, Azərbaycan torpağına yad ayağı dəyməyəcək.*



Yüksəklik boyu döyüş postlarımız sıralanıb. Burada xidmət edən əsgərlər döyüş növbəsində hər an ayıqdırlar. İlk dəfə mövqelərin qurulduğu dövrün hələ Birinci Qarabağ müharibəsinin başladığı illərə təsadüf etdiyini deyən mayor Nemət Vəliyev bir neçə ildir ki, xidmətini burada davam etdirir. O, tez-tez postlara baş çəkdiyini dedi. "Düşmənlə üzüzə xidmət etməyin özünəməxsus çətinlikləri var. Postda durarkən əsgərdən ayıqsayıqlıq tələb olunur. Çünki bir az diqqətsizlik yaransa, düşmən mövqeyimizə soxula bilər. Düşmənin bu cür cəhdləri çox olub. Gecə, yaxud dumanlı hava şəraitində daha fəal olmağa cəhd göstərir. Gündüz vaxtı da bəzən arasıra postlarımıza atəş açırlar. Cavab tədbirlərindən sonra düşmən susur".

Düşmənlə üzbəüz, əraziyə uyğun maskalanmış mövqelərin hər biri alınmaz bir qaladır. Bu qalaları qoruyub saxlayanlar Birinci Qarabağ müharibəsindən bu günə kimi burada xidmət edən Vətənimizin məğrur oğulları olublar. Bu illər ərzində torpaqlarımız həm müdafiə olundu, həm də illərlə işğalda qalmış ərazilərimiz azad edildi. Ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığını daim yüksəldən və buna məsul şəxslər bu gün də üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər.

Zabit Vəli Allahverdiyev bölmənin dayaq məntəqəsində müntəzəm döyüş növbətçiliyini təşkil edir. Öndə dayanan düşməni nəzarətsiz qoymur. Əsgərlərə ərazinin daim müşahidə altında saxlanması barədə göstəriş verir.

Biz artıq mövqedəyik. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Əfəndi Qasımov on ildən artıqdır ki, hərbi xidmətdədir. O, Şəmkir rayonunun Dəllər Cırdaxan kəndində anadan olub. 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatlarının fəal iştirakçısıdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən döyüşlərdə göstərdiyi igidliyə görə "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. Əfəndi bu gün də dağlar qoynunda üzərinə düşən Vətən borcunu şərəflə yerinə yetirir. Burada döyüş növbətçiliyini ayıq-sayıq təşkil etməklə mövqelərimizi düşməndən qorunmasında səylə iştirak edir.

Burada olan əsgərlərin hər biri ölkəmizin müxtəlif bölgələrindəndir. Komandirlərin daim diqqət və qayğısı nəticəsində hamı mehribandır. Əsgər Orxan Abdullayev dedi ki, bir ildən artıqdır hərbi xidmətdəyəm. “Masallı rayonunun Böyük Kolatan kəndindənəm. Əsgər yoldaşlarımdan Polad Primov Zaqatala rayonunun Suvagil kəndindən, Nahid Məmişzadə Laçından olsa da, Bərdə rayonunun Qarakeçdi kəndində valideynləri ilə məskunlaşıb. Əsgər Elşən Abbasov Tərtərdən, Ziya Vəliyev Cəlilabaddan, Vüsal Əlili Lerikdəndir. Bizim xidmət etməyimizin başlıca məqsədi doğma yurdumuzu düşməndən qorumaqdır. Hər birimiz istər döyüş növbətçiliyi zamanı, istərsə də ayıq vaxtı səngərləri dolanıb atəş sektorlarını döyüş aparmaq üçün əlverişli vəziyyətə gətiririk”.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şamil Nəbiyev Tovuz rayonundandır. Müddətli həqiqi hərbi xidmət dövrü Naxçıvanda olub. Tovuz döyüşlərinin iştirakçısı olduğunu deyən Şamil 44 günlük Vətən müharibəsi zamanı Ermənistanla şərti sərhəddə dayanıblar. Düşmənin həmin istiqamətdə hücumunun qarşısını almaq üçün gecə-gündüz ayıq olublar.

- Ordumuzun gücündən, qüdrətindən çox razıyıq. Torpaqlarımız düşmən işğalında qalanda özümüzü narahat hiss edirdik. İndi isə başımızı dik tutub gəzirik. Bu zəfəri, bu qələbəni bizə bəxş edən ordumuzdur. Mən də ordumuzun bir mənsubu olduğumdan qürur duyuram. Güclü, qüdrətli ordunun əsgəri olmaq böyük xoşbəxtlikdir, - Şamil dedi.

Əsgərlər tez-tez mövqelərə baxış keçirməklə əsas və ehtiyat atəş sektoruna baş çəkirlər. Düşmənin hansı istiqamətdən mövqelərə hücum etmək cəhdi olarsa, döyüşçülər silah, əsas və ehtiyat sursatları, dəbilqə, gödəkcələr götürərək ən qısa zamanda həmin istiqamətdə mövqe tutaraq düşməni məhv etməyə qərarlıdırlar. Biz postda olarkən belə bir halın şahidi olduq. Əsgərlər həyəcanla öz atəş sektorlarında mövqeləndilər. Onlar həm zamana, həm də komandanın düzgün yerinə yetirilməsinə ciddi riayət etməyi bacardılar.

Əsgərlər arasında ucaboy, fiziki cəhətdən möhkəm bir əsgər diqqətimi çəkdi. İlkin Qurbanov olduğunu söylədilər. Azərbaycan Turizm və Menecment Universitetini bitirib. Tərtər rayonunun İrəvanlı kəndindən olan əsgər deyir ki, kiçik yaşlarından güllə səsləri eşidib. Döyüşün, səngərin nə olduğunu hələ uşaqkən dərk edib. Ona görə də burada xidmət etməyin nə qədər məsuliyyətli və qürurverici olduğunu yaxşı bilir. Döyüşçü yoldaşlarına da çətin və ağır keçən uşaqlıq illərindən danışıb. "Qarabağ müharibəsi xalqımıza nə qədər zərbələr vurduğunu yaxşı bilirik. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında keçirdiyimiz uğurlu əks-hücum, "Qisas", antiterror və başqa bu kimi əməliyyatlar bizi doğma torpaqlarımıza qovuşdurdu".

Hazırda döyüş mövqelərində bir an belə sayıqlığını itirməyən əsgərlərlə həmsöhbət olub, onların hərbi xidmətlə bağlı fikirlərini dinləmək bizim üçün xoş oldu.

Beləcə, daha bir döyüş postumuzdan, Vətənimizin məğrur əsgərlərindən ayrılmaq zamanı çatdı. Onlara gələcək xidmətlərində uğurlar arzulayıb, ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Milli Müdafiə Universiteti ali hərbi təhsil müəssisələrinə abituriyent qəbulu elan edir

*Milli Müdafiə Universiteti 2024-2025-ci tədris ili üçün ali təhsilin bakalavr pilləsi üzrə Türkiyə Respublikasının ali hərbi təhsil müəssisələrinə abituriyent qəbulu elan edir.*

AZƏRTAC xəbər verir ki, tələblərə cavab verən namizədlər cari il avqustun 2-dək xaricdə hərbi təhsil üzrə ilkin qeydiyyat forması (mmu.edu.az-qeydiyyat) üzərindən müraciət edə bilər.

**Tələblər:** Dövlət İmtahan Mərkəzi tərəfindən I, II, III ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanlarında 450 bal və daha yüksək nəticə əldə etmiş, cari ildə ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşı olması.

**Hərbi ixtisaslarla yanaşı verilən müvafiq ali peşə-ixtisasları:** aerokosmik mühəndislik; kompüter mühəndisliyi; elektrik və elektronika mühəndisliyi; mexanika mühəndisliyi; radiotexnika və telekommunikasiya mühəndisliyi; sənaye mühəndisliyi; inşaat mühəndisliyi; gəmi inşaatı və gəmi mexanikası mühəndisliyi; müdafiə fəaliyyətləri (menecment); beynəlxalq mü-




nasibətlər; tarix.

**İmtiyazlar:** 500 (beş yüz) manat məbləğində birdəfəlik ödəmə; 150 (yüz əlli) manat məbləğində aylıq təqaüd; 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə aylıq maddi yardım; 200 (iki yüz) manat məbləğində hesabda yığılan aylıq ödəniş; təhsil müddətində təhsilalanların bütün təminat növləri ilə təmin olunması (yataqxana, qidalanma, xüsusi geyim forması və s.); ildə bir dəfə Azərbaycana gediş-gəliş xərclərinin təmin olunması.

Qeydiyyat üçün xaricdə hərbi təhsil üzrə ilkin qeydiyyat formasını (mmu.edu.azqeydiyyat) dəqiq doldurulması xahiş olunur.

Namizədlər müvafiq sənədlərini təqdim etməsi və ətraflı məlumat əldə etməsi üçün avqustun 3-də saat 15:00-da Heydər Əliyev adına Hərbi İnstitutda keçiriləcək tədbirə dəvət olunurlar. Namizədlərdən qəbul imtahanlarının I və II mərhələsinin nəticələrini təsdiq edən sənədlər, 3x4 sm formatında 4 ədəd fotoşəkil və şəxsiyyət vəsiqələri ilə birlikdə (arzu etdikləri təqdirdə valideynləri ilə birlikdə iştirak edə bilərlər) yaxınlaşmaları xahiş olunur. Ünvan: Bakı şəhəri, Xətai rayonu, Polad Həşimov küçəsi 9a.

Ətraflı məlumat üçün Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin (www.msu.edu.tr) və tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrinin (Kara Harp Okulu (kho.-msu.edu.tr), Hava Harp Okulu (hho.msu.edu.tr) və Deniz Harp Okulu (dho.-msu.edu.tr)) rəsmi saytlarına keçid etmək və ya *0811 qısa nömrəsi ilə əlaqə saxlamaq lazımdır.

## Müdafiə Nazirliyinin məlumatı

İyulun 28-də saat 17:40 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter ordumuzun Laçın rayonu istiqamətində yerləşən mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan növbəti pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilib və ərazidən uzaqlaşdırılıb.

*Tarixi sərkərdələrimiz*

# Əfsanəyə çevrilən cəsur sərkərdə - Cavanşir

*Dövlət tarixi şəxsiyyəti deyil, tarixi şəxsiyyət dövləti yaradır. Qurduğu dövləti, qoruduğu dövləti, yaşatdığı dövləti. Atası Varaz qursa da, Cavanşir Girdiman dövlətini dünyanın yaddaşına - tarixə həkk etdi. On beş əsrdi Girdiman adı Cavanşir adının günəşidi...*

Cavanşir də digər tarix yazan dahi şəxsiyyətlər kimi daim böyük ehtiramla anılır. Tarixdə Girdman adlı dövlətin, Cavanşir adlı sərkərdənin işığı əbədiyyət işığıdı. Son nəfəsinə kimi xalqının gələcəyi üçün apardığı mübarizədə yenilməz zəfər sərkərdəsi olmuşdur Cavanşir. Görkəmli dövlət xadimi, bacarıqlı diplomat və cəsur sərkərdə olan Cavanşir 43 il ərzində Albaniya-Girdiman dövlətinə başçılıq edib. Sərkərdəydi, döyüşçüydü, döyüşən sərkərdəydi Cavanşir. Ölkənin maraqlarını hər şeydən üstün tutan görkəmli tarixi şəxsiyyət idi Cavanşir.

VII əsrin əvvəllərində Azərbaycanın şimalında Azərbaycan dövlətçiliyi yenidən bərpa olundu. Bu dövlət tarixdə Albaniya-Girdiman dövləti adlanır. Dövlətin yerləşdiyi Girdiman ərazisi əvvəllər Qazax-Şəmkir bölgəsini əhatə edib. Sonralar Kür çayının sol sahilinə doğru irəliləyən Mehranilər öz hakimiyyətini, Göyçay çayı və Girdiman çayı hövzələri də daxil olmaqla, bütün Albaniyada yaydılar. Bu ərazidə onlar Girdiman qalasını, Mehrəvan şəhərini və alban məbədlərini inşa etdilər. Mehranilər dövlətin paytaxtını Qəbələdən Bərdəyə köçürdülər.

Tarixi qaynaqlarda Mehranilər sülaləsinin hakimiyyət illəri Albaniyanın hər sahədə qüdrətləndiyi dövr kimi xarakterizə olunur. Məhz o dövrdə Albaniya təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Şərqlə Qərb arasında həlledici mövqelərə yiyələnən nüfuzlu bir dövlətə çevrildi. Dünyanı lərzəyə salan Bizans və Sasani imperiyaları, Ərəb xilafəti və Xəzər xaqanlığı da ayrı-ayrı vaxtlarda Albaniya ilə müttəfiqlik etməyə maraqlı idilər. Bu, hər şeydən öncə, böyük Mehrani knyazlarının ağıllı və düzgün xarici siyasəti, taktiki və strateji baxımdan düşünülmüş hərbi doktrinası və ən başlıcası, gərgin və həm də incə diplomatik səyləri nəticəsində mümkün olmuşdu.

Bu dövlət özünün ən nüfuzlu və məhsuldar vaxtlarını Azərbaycan Alban dövlətinin hökmdarı, məşhur Mehranilər sülaləsinin ən qüdrətli nümayəndəsi, görkəmli dövlət adamı, müdrik siyasətçi və diplomat, mahir sərkərdə Cavanşirin hakimiyyəti zamanında yaşayıb. Onun hakimiyyəti dövründə Qafqaz Albaniyasının uğurlu xarici siyasəti nəticəsində güclənmiş və Şərqin ən önəmli dövlətlərindən birinə çevrilmişdi.

Dövrünün görkəmli dövlət xadimi və cəsur sərkərdə olan Cavanşir 616-cı ildə Mehranilər nəslindən olan Varaz Qriqorun (638-642) ailəsində dünyaya göz açmışdı. Varaz Qriqorun 4 oğlu olub. Cavanşir ailədə ikinci oğul övladı idi. Fiziki cəhətdən çox sağlam və güclü olan Cavanşir hələ gəncliyindən ağlı, cəsurluğu ilə yaşıdlarından seçilirdi. Atası onun görkəmli və gözəl bir şahzadə olacağına əmin idi.

633-cü ildə Sasani dövlətinə ərəblərin hücumu başladı. Sasani şahənşahı III Yezdəgerd bütün qüvvələri ərəblərə qarşı yönəltdi. Onun xahişi ilə Varaz Qriqorun köməyə göndərdiyi alban qoşunlarına oğlu Cavanşir rəhbərlik edirdi.

Xilafət ordusu və Sasanilərin birləşmiş qüvvələrinin ilk döyüşü İraqdakı Bataqlıq və əl-Nəcəf gölünün sahilində baş verdi. Bu zaman 7 ağır yara alan Cavanşir atı ilə Dəclə çayının lal sularına atılıb və digər sahilə çıxıb. Sasani şahı III Yezdəgerd Azərbaycan sərkərdəsinin bu misilsiz igidliyindən xəbər tutanda onunla şəxsən görüşmək istəyib. İranın adlı-sanlı əyanları qarşısında III Yezdəgerd Cavanşiri sərkərdələrə layiq mükafatlandırıb. Bundan sonra Cavanşirin şöhrəti daha da artır.

Cavanşir öz qoşunu ilə Sasani dövlətinin paytaxtı Ktesifon (Mədain) şəhərinin müdafiəsində və Nəhavənd döyüşündə iştirak etmişdi. Bu döyüşlərdə 11 yara alan Cavanşir mərdliyi ilə ad qazanmışdı. Hətta ərəb tarixçiləri də onun sərkərdəlik məharətini etiraf edirdilər. 9 il qürbətdə olan Cavanşir zəngin döyüş təcrübəsi toplamışdı.

Sasani dövlətinin süquta uğradığını görən Cavanşir Vətənə qayıdır. Albaniyada Cavanşir qalib sərkərdə kimi qarşılanıb. Atası oğlunu bağrına basaraq sevincdən ağlayıb. O vaxtdan etibarən Albaniyaya rəhbərlik Cavanşirə həvalə olunub.

642-ci ildə Varaz Qriqor ölüm ayağında Cavanşiri özünə varis elan etmişdi. Albaniya taxt-tacına sahib duranda Cavanşirin cəmi 21 yaşı var idi. Gənc olmasına baxmayaraq, o, artıq tanınmış sərkərdə kimi Albaniyada və ondan çox-çox uzaqlarda kifayət qədər məşhur idi.

Cavanşirin hakimiyyətə gəlişi Albaniya taxt-tacının idarəçiliyində yeni dövlətçilik mərhələsinin başlanğıcı oldu. O, hiss edirdi ki, İran taxt-tacı artıq zəifləyib. Belə olan şəraitdə Albaniyanı vassallıqdan qurtarıb, daha çox müstəqil dövlət kursu yeritməlidir. Albaniyanın hakim dairələrinin belə mövqeyi İranın kəskin reaksiyasına səbəb oldu. Belə ki, İran bunu Cavanşirin üsyanı kimi dəyərləndirdi və Albaniya üzərinə ordu yeritdi. Cavanşir özünün yaxşı silahlanmış dəstəsi ilə iranlıların qarşısına çıxdı. O, özü düşmənin Dəyləm mənşəli başçısını vurdu. Döyüşdə İran tərəfi böyük itki verdi. Düşmən döyüşçülərinin çoxu qılıncdan keçirildi, bir qismi əsir götürüldü.



Tərəflər arasında növbəti döyüş Albaniyanın dağlıq ərazilərindən birində oldu. Cavanşir bu döyüşdə də qələbə qazandı və düşməni darmadağın etdi. Döyüş meydanlarında ağır itkilər verərək məğlub olan İran qoşunlarının bir hissəsi Bərdəyə daxil olaraq, Cavanşirin anasını və qardaşlarını girov götürdü. Düşmənin bu namərd hərəkəti Cavanşiri bərk qəzəbləndirdi. Alban tarixçisi bu barədə belə yazır: "Mən həqiqəti gizlətmirəm və deyirəm: o gün Cavanşir balalarını itirmiş dişi ayı kimi çox qəzəbləndi və hiddətləndi... O, Kambeçan vilayətində və Kürün o biri sahilində yerləşən öz atababa mülkünə gəldi. Burada o, iranlıların qüvvələrinə laqeydlik göstərməyərək, onlarla döyüşə hazırlıq gördü və qoşunlarını üzbəüz çox düzgün yerləşdirdi".

Alban ordusu ilə İran ordusu arasında növbəti döyüş daha amansız oldu. Lakin İran hökmranlığına qarşı mübarizə hələ bitməmişdi - Cavanşir anasını və qardaşlarını bu döyüşdə də əsirlikdən xilas edə bilməmişdi. Ona görə də alban hökmdarı qüvvələrini artırmaq və müttəfiqlərini də döyüş əməliyyatlarına cəlb etmək məqsədilə Gürcüstana getdi. Orada alban sərkərdəsini onun adına və şöhrətinə layiq bir dəbdəbə ilə qarşıladılar. Gürcü knyazı Atrnerseh Cavanşirlə görüşə gələrək onun yaralarını öz əlləri ilə sarıyıb, onun qələbələri ilə fəxr etdiyini bildirib. Bu görüş zamanı Albaniya və Gürcüstan arasında hərbi saziş imzalanır. Bundan sonra Alban sərkərdəsi gürcü qoşununun köməyi ilə Uti vilayətinə yürüş edib və orada qarşısına çıxan iranlıların hamısını qılıncdan keçirib. Daha sonra Cavanşirin qüvvələri Bərdəyə daxil olaraq oradakı İran ordu hissələrini darmadağın edərək Cavanşirin anasını və qardaşlarını əsirlikdən azad edib.

Hərbi əməliyyatlarda ağır məğlubiyyətə düçar olan İran, Albaniya ilə danışıqlara başlayıb. İran sərkərdəsi Sünikin böyük knyazı vasitəsilə Cavanşirə məktub göndərərək and içib ki, onunla ittifaq bağlamaq arzusundadır. Beləliklə, İran və Albaniya arasında sülh və dostluğa dair ittifaq imzalanıb. Bununla belə, Cavanşir İran sərkərdəsinə onu da bildirib ki, bundan sonra "hər iki tərəf öz bildiyi kimi müstəqil hökmranlıq etməlidir". Cavanşirin bu hərəkəti, əslində, Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə tarixinin ən erkən səhifəsi kimi dəyərləndirilməlidir. Cavanşir Albaniyanı hərbi-iqtisadi cəhətdən qüdrətli bir dövlətə çevirdikdən sonra onu siyasi cəhətdən də müstəqil etmək barədə düşünməyə başlamışdı.

Sasanilərlə müharibədən başı hələ tam ayılmayan Albaniya daha sonra bütün Yaxın və Orta Şərqi lərzəyə salan Ərəb xilafətinin hücumları qarşısında dayanmaq zorunda qalmışdı. Cavanşir əvvəlcə ərəblərə tabe olmayaraq Kür çayının digər sahilinə çəkilib və yenidən özünə müttəfiq axtarmağa başlayıb. Bu məqsədlə o, Bizans imperatoru II Konstantla diplomatik əlaqələrə girib. Salnaməçinin məlumatına görə, əshabələri Cavanşirin məktubunu imperator II Konstanta oxuyanda "o, səmimi-qəlbdən sevindi və o günü böyük bir qonaqlıq verdi. Vaxt itirmədən cavab məktubu yazmağı və qarşılıqlı ittifaq haqqında müqaviləni hazırlamağı əmr etdi. O, Cavanşirə çox qiymətli hədiyyələr göndərdi. Cavanşiri birinci patrik rütbəsinə qaldırdı (xatırladaq ki, bu, Bizans imperiyasının özündə nadir hallarda verilən çox yüksək rütbə idi) və əmr etdi ki, albanlardan 1200 nəfəri patrik, konsul, eksprefekt, general və elist rütbələri vermək üçün fərmanlar göndərsinlər və bu rütbələri Cavanşir istədiyi şəxslərə paylasın".

Bizans imperatoru sadalanan qiymətli hədiyyələrlə bərabər, Cavanşirə olduqca səmimi bir məktub da göndərib. Məktubda deyilirdi: "Sənə, hökmdar Cavanşirə, Girdimanın sahibinə və Albaniya knyazına, apoiapata və proton patrikə və Şərqin hökmdarına xilaskar xaçın ilahi qüvvəsindən mərhəmət və bərəkət, bizim imperator şəxsimizdən isə salam və məhəbbətimiz... Biz və bizim oğullarımız əbədi olaraq sizə, sənə və sənin nəsildən-nəslə gələn oğullarına sevgi, səmimiyyət və sarsılmaz məhəbbətlə münasibət bəsləyəcəyik".

Xilafət və Sasani orduları ilə döyüşlərdə əldə etdiyi qələbələr sərkərdə və dövlət xadimi kimi Cavanşirin hörmət və nüfuzunun sürətlə artmasına səbəb oldu. Bütün bunlar Albaniya əhalisi tərəfindən böyük sevinc və qürur hissi ilə qarşılandı.

Bizansla hərbi-siyasi ittifaqda olması, Albaniyanın və sərkərdə - hökmdar kimi Cavanşirin nüfuzunu daha da artırmışdı. Hər iki tərəf bu ittifaqa və dostluğa çox böyük əhəmiyyət verirdi. Tərəflər dostluq və ittifaqı daha da möhkəmləndirmək naminə əllərindən gələni edirdilər. 661-ci ilin yazında alban hökmdarının imperator II Konstantla Vaqarşapatda olan növbəti görüşü də bu məqsədə xidmət edirdi. Salnaməçinin yazdığına görə, Bizans imperatoru bu dəfə də Cavanşiri xüsusi bir hörmətlə qarşılayıb: "İmperator əmr etdi ki, bütün saray xadimləri və əyanlar onun qarşısına çıxsınlar. O, imperator kimi təntənə ilə II Konstantın sarayına daxil oldu. Cavanşiri görən kimi II Konstant onu qucaqladı və bütün əyanlarından yuxarıda oturtdu... İmperator əmr etdi ki, Cavanşirin qabağına çara layiq süfrə açsınlar, bu isə onunla həmsüfrə olanları həddindən artıq təəccübləndirdi. Bundan başqa, imperator Cavanşirin belinə öz babası İraklinin və ulu nənəsi Niketanın çar kəmərini bağladı, çiyninə öz əbasını saldı və iki bayraq bağışladı. Cavanşirin iki gənc oğlunu patrik rütbəsinə layiq gördü. O, Albaniyanın ilk çarlarına məxsus olan bütün kənd və mülklərini Cavanşirə irsən nəsildən-nəslə keçmək şərtilə bağışladı və çar kimi bütün Şərq xalqına hökmran təyin etdi".

Uzun illər ərzində dünyaya meydan oxuyan böyük bir imperiyanın başında duran bir şəxsin - imperator II Konstantın belə bir münasibəti isə Albaniya dövlətinin və onun başçısının nüfuzuna dəlalət edirdi.

Ölkədə və Vətəndən uzaqlarda hörməti və nüfuzu artdıqca Cavanşirin öz təbəələrinə sevgi və qayğısı da artırdı. Cavanşirin ölkə üçün, xalq üçün etdikləri, onun müasirlərini heyran edən insani keyfiyyətləri barədə söz-söhbətlər az qala ildırım sürəti ilə dünyanın hər tərəfinə yayılmaqda idi.

Cavanşirin diplomatik səylərinə baxmayaraq, Albaniya ərazilərinin xilafət ordusu tərəfindən istila olunmasının qarşısını almaq mümkün olmadı. Salman ibn Rəbiənin hərbi dəstələri qısa vaxt ərzində Bərdə, Beyləqan, Uti, Şəki, Qəbələ və Şamaxını ələ keçirərək yerli hakimlərlə sülh sazişi bağladı.

O zaman Şimali Afrikadan Hindistan sərhədlərinədək uzanan Ərəb xilafəti dünyanın ən güclü dövləti idi. Bunu anlayan və əbəs yerə öz adamlarının qanını axıtmaq istəməyən Cavanşir ərəblərlə danışıqlara başlamaq qərarına gəlib. Ərəb xəlifəsi Müaviyə düşmən hesab etdiyi Cavanşirin cüzi mühafizə dəstəsi ilə Dəməşqə doğru gəldiyini eşidəndə əvvəlcə buna inanmayıb. O, 633 - 642-ci illərdə ərəblərə qarşı Cavanşirin igidliklə vuruşduğunu bilirdi və ona görə də albanlarla müharibə olacağını gözləyirdi. Cavanşirin gözlənilməz hərəkəti onu çaşbaş salıb. Hər-halda, mərd insanlara daim hörmətlə yanaşan xəlifə Müaviyə Cavanşiri hörmətlə qarşılamağı əmr edib. 667-ci ildə Dəməşqdə aparılan danışıqlarda xəlifə Albaniyanın daxili müstəqilliyini tanıyıb. Bu o demək idi ki, ərəb qoşunları Albaniyaya yeridilməyəcək, Albaniyanın daxilində heç bir işə qarışmayacaqlar. Əvəzində Cavanşir hər il müəyyən məbləğdə vergi ödəyəcək. Dövlətinin müstəqilliyini qoruyub-saxlaya bilmiş Cavanşir verginin miqdarının da az olmasına razılıq alıb.

**(Ardı 6-cı səhifədə)**

*Tarix yazan oğullar*

# Şəhidlər xalqımızın qürur tarixidir





*İkinci Qarabağ müharibəsində canını Vətən torpaqlarının azadlığı uğrunda qurban verən oğullardan biri də Cəbrayıl Qasımovdur. O, 19 iyul 1996-cı ildə Masallı rayonunda dünyaya göz açıb. 28 il öncə Qasımovlar ailəsində dünyaya gələn bir oğul övladına Cəbrayıl adını veriblər. Üç bacıdan sonra dünyaya gələn Cəbrayıl, həm də evin yeganə oğul övladı idi.*

Bu günlərdə Masallı rayonunda anım günü qeyd edilən şəhid Cəbrayılın doğulub boya-başa çatdığı evin ziyarətinə getdik. Hər bir şəhid ünvanı müqəddəs ocaqdır. Yol boyu şəhidlərimizin xatirəsinə vurulmuş üçrəngli Azərbaycan bayrağı ilə bəzədilmiş böyük ölçüdə fotoşəkilləri, xatirə bulaqları diqqətimizi çəkir. Onların hər biri öz elinin, obasının fəxridi, qürur yeridi. Bu qürur dolu mənzərələri seyr etdikcə belə bir qənaətə gəlirəm: Böyük dövlətimiz, qədirbilən xalqımız torpaqlarımız uğrunda canından keçən şəhid övladlarını unutmur, onların xatirəsini daim əziz tutur.

Şəhidin atası Baloğlan Qasımov, anası Fatimə Qasımova bizi həyətdə qarşılayırlar. Onlar yeganə oğullarının yığıb topladıqları əşyalarından ibarət yaratdıqları guşənin yerləşdiyi mənzilə bizi dəvət edirlər. Vətən müharibəsi başlayanda Cəbrayıl arxa cəbhədə oturub gözləməyi özünün mənliyinə, qüruruna sığışdırmayıb. Könüllü olaraq cəbhəyə yola düşməyi qərara alıb. Atası Baloğlan kişi Birinci Qarabağ müharibəsinin könüllü döyüşçülərindən idi. Onun 30 ildən sonra tək oğlu Cəbrayıl da İkinci Qarabağ müharibəsinin könüllülərindən biri oldu.

Keçmiş döyüşçü ailəsində böyüyüb boya-başa çatan Cəbrayıl hələ müddətli həqiqi hərbi xidmətdə olarkən "Müzəffər Ali Baş Komandan bu gün döyüş əmri verərsə, ön sıralarda mən də olaram" demişdi. O hərbi xidmətdə olarkən verdiyi sözünə əməl etdi, içdiyi Vətən andına sadiq qaldı. 27 sentyabr 2020-ci ildə Cəbrayıl torpaqlarımızın erməni faşistlərindən təmizlənməsi uğrunda gedən döyüşlərə - Vətən müharibəsinə yollanır...

Fatimə ana şəhid övladının albomundakı şəkillərinə baxaraq dərindən ah çəkir: "Cəbrayıl yenicə nişanlanmışdı. Biz onun toy tədarükünə hazırlaşırdıq. Lakin "Vətən dardadır, bu gün hər bir oğul silaha sarılıb döyüşə getməlidir. Torpaqlarımız düşmən əlində əsirdir. Biz onu bu əsirlikdən xilas etməliyik" dedi Cəbrayıl. Özü də müharibəyə getdi".

Baloğlan kişi Cəbrayılın ağır döyüşlərdə iştirakından danışdı: "Qorxmaz, igid oğul idi. Torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlayarsa, o da gedəcəyini öncədən bizə söyləmişdi. Bu gün bütün el, oba Cəbrayılla fəxr edir. Onun xatirəsini əziz tutur. Bu günlərdə bütün kənd camaatının iştirakı ilə anım günü keçirildi. Allah bütün şəhid valideynlərinə səbir versin. Şəhidlər Vətənimizin, xalqımızın seçilmiş övladlarıdır. Onlar torpaq fədailəridirlər. Canlarını Vətənə sipər edən igidlərdir. Təki Vətən yaşasın! Zəfər tariximizi xalqımıza yaşadan şəhid övladlarımıza Allah rəhmət eləsin! Məkanları cənnət olsun".

Dörd il öncə torpaqlarımız kənd-kənd, qarış-qarış azad edildikcə, ordumuz irəliləyir, erməni işğalçıları 30 ilə yaxın əsirlikdə saxladıqları tarixi ərazilərimizdən silah və texnikalarını götürmədən qaçırdılar. Oktyabrın 8-də ağır döyüşlərin getdiyi Cəbrayıl rayonu istiqamətində Cəbrayıl ən ali zirvəyə - şəhidlik zirvəsinə yüksəlir. Bu şirin həyatdan doymayan canını torpaq uğrunda fəda edən minlərlə Vətən oğullarının sırasına Cəbrayılın da adı yazıldı. Oktyabrın 9-da Cəbrayıl Baloğlan oğlu Qasımov Masallı rayonunun Ərəb kəndində torpağa tapşırıldı.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Cəbrayıl Qasımov "Cəsur döyüşçü", "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.

Bu təltiflər Cəbrayılın vətənsevərliyinin, torpaqsevərliyinin təsdiqidir. Torpağa, Vətənə bağlılıq böyüyüb başa-çatdığı ocağın istisi, qığılcımı idi Cəbrayılda. Bu gün o təkcə elinin, obasının deyil, bütün Azərbaycan xalqının oğludur. Xalqımız Vətənimizə, torpaqlarımıza azadlıq bəxş edən hünərli oğulları ilə daima fəxr edir. Şəhidlər xalqımızın qürur tarixidir. Bu qürur tariximizi yaşatmaq, əbədiyyətə qovuşdurmaq hər birimizin vətəndaşlıq borcu, mənəvi məsuliyyətimizdir.

Biz Vətənin bütövlüyü naminə canından keçən bir gəncin boya-başa çatdığı ocağının ziyarətindən ayrılarkən, şəhidin valideynləri Baloğlan kişi və Fatimə ana onlara göstərilən diqqət və qayğıya, oğullarının adının uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Bütün bunlar bir daha onu göstərir ki, şəhid ailələrinin yanında olan qüdrətli dövlətimiz, qədirbilən xalqımız şəhidlərimizin xatirəsini əziz tutur, onların adlarını əbədiləşdirir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Əfsanəyə çevrilən cəsur sərkərdə - Cavanşir

**(Əvvəli 5-ci səhifədə)**

Onun şəxsi nüfuzunu və qabiliyyətini, habelə Albaniyanın strateji-coğrafi mövqeyini yüksək qiymətləndirən I Müaviyə Bizansla danışıqlarda Cavanşirin vasitəçi olmasını istəyir. Cavanşir də öz növbəsində bu danışıqları elə məharətlə aparıb ki, hər iki tərəf razı qalıb. Bu barədə "Alban tarixi" adlı əsərdə belə yazılır: "...Xəlifə Cavanşir üçün öz doğma qardaşının sarayını hazırlamağı əmr etdi, axşam yeməyinə onunla birlikdə oturdu. Sonra o, Konstantinopoldan gələn əsilzadə ərlər ilə sülh danışığı aparmağı Cavanşirə tapşırdı. Xəlifə onun dərin biliyinə heyrət edirdi. Yunan hökmdarının elçiləri də ondan çox razı idilər, çünki o, hər vəchlə xəlifənin fikrini onların xeyrinə yönəltməyə çalışırdı".

Xəlifə Cavanşiri qiymətli hədiyyələrlə mükafatlandıraraq Sünik knyazlığının idarəçiliyini ona tapşırıb. Vətəninə qayıdan Cavanşir qısa zaman ərzində ölkənin həyatını normallaşdırmağa nail olub. Albaniya iqtisadi baxımdan çox inkişaf edib. Onun paytaxtı Bərdə bütün Şərqdə iri ticarət mərkəzi kimi tanınmağa başlayıb. Burada şərq və qərbdən, şimal və cənubdan gələn yollar kəsişirdi.

Alban hökmdarı ölkədə və onun hüdudlarından çox-çox uzaqlarda böyük hörmət və nüfuz sahibi kimi məşhurlaşmışdı. Cavanşir öz ölkəsini ədalətlə idarə edir, xalqın güzəranının yaxşılaşması qayğısına qalırdı. Öz dövlətinin paytaxtını abadlaşdırır, gözəl saraylar inşa etdirirdi. Məhz bu qayğının nəticəsi olaraq Bərdə şəhəri qısa bir zamanda, mənbələrdə deyildiyi kimi, Arranın baş şəhərinə çevrilib. Cavanşir müdrik adamları - alim və şairləri öz sarayına toplayıb onları himayə edib. Tədqiqatlar göstərir ki, Cavanşirin hakimiyyəti dövründə dövlətin nəinki maddi mədəniyyəti, həm də mənəvi mədəniyyəti yüksək inkişaf səviyyəsinə çatıb. Məhz Cavanşirin hakimiyyəti illərində və çox güman ki, bilavasitə onun tapşırığı ilə M.Kalankatuklu tərəfindən "Albaniya tarixi" əsəri yazılıb. Girdiman qalasında Cavanşirin şəxsi təşəbbüsü ilə zəmanəsinin ən təmtəraqlı məbədlərindən biri ucaldılıb və s.

Cavanşirin müsəlman hökmdarı ilə yaxınlaşması, Albaniya ilə Ərəb xilafəti arasında münasibətlərin yaxşılaşması xristian mənşəli feodalların xoşuna gəlmir. O, 681-ci ildə sui-qəsd nəticəsində öldürülür.

On üç əsrdən çox bir müddətdir ki, Cavanşirin hünəri və xidmətləri xalqın yaddaşında yaşamaqdadır. İsmayıllı rayonu ərazisində VII əsrin yadigarı olan Cavanşir qalası, alban hökmdarlarının yay iqamətgahı kimi tanınan Girdiman qalası, Cavanşirin təşəbbüsü ilə orada tikilmiş müqəddəs Allah evi, onun şəxsi feodal mülklərindən hesab edilən Ağsu rayonu ərazisindəki Cavanşir kəndi (ötən əsrin 50-ci illərində həmin kənd köçürülərək yerində su anbarı tikilib), Ağsu, İsmayıllı, Qəbələ və Oğuz rayonları ərazisindəki bir sıra qədim toponimlər də qüdrətli alban hökmdarının adının və xidmətlərinin bu günə qədər yaşadığından və xalq tərəfindən unudulmadığından xəbər verir.

Cavanşirin adı nəsillərdən-nəsillərə keçərək müstəqillik, müdriklik, qəhrəmanlıq və mərdlik rəmzi kimi əbədi yaşayır və yaşayacaqdır.

**Hazırladı:**
**kapitan**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

Hərb tariximizdən

# Cümhuriyyət Ordusu Azərbaycan dövlətçiliyinin şanlı səhifəsidir

*Müsəlman Şərqində ilk demokratik respublika olan, cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhiriyyətinin xalqımızın dövlətçilik tarixində özünəməxsus yeri var. Dövlətçilik tariximizin şərəfli səhifəsi sayılan Cümhuriyyətin önəmi zaman keçdikcə daha aydın dərk edilir və yüksək dəyərləndirilir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması çoxminillik dövlətçilik ənənələrimizin ölməzliyinin təzahürü və xalqımızın müstəqillik arzularının gerçəkləşməsinin təntənəsidir, müasir müstəqil Azərbaycan dövləti onun hüquqi-siyasi varisidir". Müstəqil dövlətin bütün atributları, o cümlədən milli ordumuz bu dövrdə formalaşdırıldı.*

1918-ci il iyunun 26-da Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə Azərbaycanda milli ordunun təməli qoyuldu. Həmin il avqustun 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi təsis edildi. Qısa müddət ərzində milli ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırmaqda yüksək peşəkarlıq nümayiş etdirdi. Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi.



Azərbaycanın istiqlaliyyətinin elan olunduğu tarixi şərait, onun qərar tutduğu bölgədə cərəyan edən proseslər xalqın müstəqilliyinə real dayaq ola biləcək güclü milli ordunun formalaşdırılmasını tələb edirdi. Hələ Türkiyə hərbi qüvvələri Azərbaycanda olarkən başlamış ordu quruculuğunu yenidən canladırmaq və onu daha geniş formada aparmaq üçün 1918-ci il oktyabrın 23-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında Hərbi Nazirliyin yaradılması qərara alındı. Nazirlər Şurası tərəfindən belə bir qərar 1918-ci il noyabrın 1-də imzalandı.

Yeni şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması tamamilə Hərbi Nazirliyin üzərinə düşürdü. Bu struktur hökumətin qarşısında dayanan tarixi vəzifələrin həllində çox mühüm rol oynadığından ona rəhbərliyi ilk vaxtlar Nazirlər Şurasının sədri Fətəli xan Xoyski öz üzərinə götürdü. Tam artilleriya generalı Səməd bəy Mehmandarov isə nazir müavini təyin edildi və nazirliyin formalaşdırılması ona tapşırıldı.

Mudros müqaviləsinin şərtlərinə görə, müttəfiq dövlətlər adından Bakıya gəlməli olan ingilis qüvvələri komandanı general Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb edirdi ki, 1918-ci il noyabrın 17-dək türk qoşunları kimi, Azərbaycan qoşunları da Bakı şəhərini tərk etsin. Çünki Tomson Bakı şəhərini istər iqtisadi, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. İngilis generalı müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi.

Bu səbəbdən 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçdü və öz fəaliyyətini burada davam etdirdi.

Hərbi Nazirlik yaradılana kimi mövcud olan hissə və birləşmələr başlıca olaraq Gəncə və Qarabağda yerləşdirilmişdi. Bu tarixi şəraitlə və qoşun hissələrinin icra etdikləri vəzifələrlə bağlı idi.

Qeyd edək ki, Cümhuriyyətin mövcudluğu dövründə Ermənistan hərbi qüvvələrinin Azərbaycana qarşı təcavüzü davam etmişdir. 1920-ci ilin martında bu təcavüz daha geniş və qanlı xarakter aldı. 1920-ci il martın 22-dən 23-nə keçən gecə, Novruz bayramı günlərində erməni hərbi qüvvələri eyni vaxtda Şuşada, Xankəndidə, Əsgəranda, Xocalıda və Tərtərdə yerləşən Cümhuriyyət Ordusu bölmələri üzərinə hücuma keçdi. Ermənistan hərbi qüvvələri Qarabağ ərazisində yaradılmış separatçı qüvvələrlə birlikdə dörd istiqamətdən Azərbaycan ərazilərinin işğalına cəhd göstərdilər: Qazax-Ağstafa, Cəbrayıl, Ağdərə-Tərtər və Şuşa-Əsgəran-Ağdam istiqamətlərindən başlanan hücumlar kütləvi dağıntılarla müşayiət olunurdu. Ermənistan siyasi rəhbərliyinin və hərbi komandanlığının hazırladığı plana görə, əvvəlcə bütün Qarabağ işğal altına alınmalı, sonra isə erməni hərbi qüvvələrinin Tərtərdən və Qazax istiqamətindən irəliləməsi nəticəsində Gəncə şəhəri işğal edilməli idi. Ermənistanın bu işğalçılıq planının qarşısının alınması üçün əsasən Qarabağda və onun ətrafında aparılan müharibə müstəqillik dövründə Azərbaycan Ordusunun və onun rəhbərliyinin rastlaşdığı ən ciddi və taleyüklü bir sınaq idi. Bu sınaqdan uğurla çıxmaq üçün dərhal Cümhuriyyət Ordusunun bütün potensialı səfərbərliyə alındı. Gəncədə əməliyyatın idarə edilməsi qərargahı yaradıldı və hərbi nazir Səməd bəy Mehmandarov bu qərargaha rəhbərliyi öz üzərinə götürdü. Erməni hərbi qüvvələrinin təcavüzünün əsas zərbə qüvvəsinin istiqamətləndiyi Qarabağda Azərbaycanın müstəqilliyinin qorunması üçün Cümhuriyyət Ordusunun hissə və bölmələrindən ibarət Qarabağ dəstəsi yaradıldı və ona rəhbərlik general-mayor Həbib bəy Səlimova tapşırıldı. General Əlağa Şıxlinskiyə isə Hərbi Nazirliklə Qarabağ dəstəsi və Gəncədəki əməliyyatın idarə edilməsi qərargahı arasında sıx əlaqələrin təmin edilməsi həvalə olundu. Qısa müddət ərzində Azərbaycanın müxtəlif ərazilərində yerləşdirilmiş hissə və bölmələrin Qarabağ bölgəsinə çatdırılması, onların zəruri silah və sursatla təchiz edilməsi təmin olundu. Razılaşdırılmış plan əsasında bu hissə və bölmələr müdafiə döyüşlərinə cəlb edildilər. Nəticədə erməni hərbi qüvvələrinin təcavüzkarlığının qarşısı alındı və təxminən bir ay davam edən müdafiə döyüşlərində Cümhuriyyət Ordusunun hissə və bölmələri erməni hərbi qüvvələrinə güclü zərbə endirdilər. Həm Qazax-Ağstafa istiqamətində, həm də Qarabağ daxilində erməni təcavüzünün qarşısı uğurla alındı. Hərbi nazir Səməd bəy Mehmandarovun strateji rəhbərliyi, onun müavini Əlağa Şıxlinskinin yüksək təşkilatçılığı, Qarabağdakı hərbi qüvvələrə rəhbərlik edən Həbib bəy Səlimovun, Teymur bəy Novruzovun, Cavad bəy Şıxlinskinin, başqa zabit və döyüşçülərin şücaəti, fədakarlığı nəticəsində Cümhuriyyət Ordusu ona tapşırılmış vəzifəni qələbə ilə başa çatdırdı. Erməni silahlı qüvvələrinin bütün cəhdlərinə baxmayaraq, Qarabağın Azərbaycandan qoparılması mümkün olmadı. Yaşadığımız ağır faciələr - Birinci Qarabağ və 44 günlük Vətən müharibələri, döyüş əməliyyatları sübut etdi ki, qarı düşmən heç vaxt qocalmır.

Təəssüf ki, Azərbaycanın bolşevik rus ordusu tərəfindən işğalından sonra müstəqilliyimizin ən mühüm atributu olan milli ordu hissələri ləğv edildi. Azərbaycan keçmiş ittifaqın tərkibində olduğu illərdə milli zabit korpusunun formalaşmasına, azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsinə sovet rəhbərliyi tərəfindən daim süni maneə yaradılırdı ki, bu da məqsədli xarakter daşıyırdı.

70 il sonra müstəqil Azərbaycan dövlətinin milli ordusunun yaradılmasında Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu ənənəsinin və təcrübəsinin nəzərə alınması son dərəcə gərəkli oldu. Əsası Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Ordusu hazırda regionun ən güclü ordusu, dünyanın isə 50 qüdrətli ordusu sırasındadır. Qürurla deyə bilərik ki, bu qüdrətli ordu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızın erməni silahlı qüvvələrindən azad olunmasında yüksək döyüş bacarığı göstərərək, adını şanlı hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazdı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə ordusu İraq və Suriyanın şimalında 16 terrorçunu zərərsizləşdirib



Türkiyənin Milli Müdafiə Nazirliyi bazar günü İraq və Suriyanın şimal rayonlarında 16 terrorçunun zərərsizləşdirildiyini açıqlayıb.

Türkiyə Milli Müdafiə Nazirliyi xəbər verir ki, zərbələr silahlıların İraqın şimalındakı Asos, Hakurk və Qara bölgələrinə, həmçinin Suriyada "Fərat Qalxanı" antiterror əməliyyatı zonasına endirilib.

"İraqda 11, Suriyanın şimalında 5 PKK terrorçusu məhv edilib. Türkiyə Silahlı Qüvvələrinin bölgədəki əməliyyatları sonuncu terrorçu məhv edilənə qədər davam edəcək", - deyə Milli Müdafiə Nazirliyinin məlumatında bildirilir.

### Mali ordusu ölkənin cənub-qərbində terrorçuların bir neçə bazasını məhv edib



Mali Silahlı Qüvvələrinin bölmələri ölkənin cənub-qərbində antiterror əməliyyatı keçirib.

Bu barədə AES INFO informasiya portalı məlumat yayıb.

Mali hərbçiləri ərazidə bir neçə terror bazasını aşkarlayaraq məhv edib.

Bundan əlavə, onlar Nara və Kvala şəhərlərini birləşdirən yolu açıblar.

Ordu bölmələri, həmçinin yerli əhalidən quldurlar tərəfindən oğurlanmış mal-qaranı geri qaytarıblar.

Qeyd edək ki, Mali hakimiyyəti ilə ekstremist və separatçı qruplar arasındasilahlı münaqişə 2012-ci ildə başlayıb. O vaxtdan bəri ölkə, ilk növbədə, təhlükəsizlik və sosial-iqtisadi inkişaf sahəsində böhranlı vəziyyətdədir.

### Türkiyə istehsalı olan "Hürjet" İspaniyanın təlim təyyarələrini əvəzləyə bilər



Türkiyənin Aviasiya və Aerokosmik Sənayesi (TUSAŞ) tərəfindən istehsal edilən milli hərbi təlim təyyarəsi "Hürjet" İspaniyanın F-5-ni əvəz edə bilər.

"Hürjet" təyyarəsi tenderdə iştirak məqsədilə İspaniyaya səfər edib. Bu, "Hürjet"in Türkiyədən kənara ilk uçuşudur.

Türkiyənin milli istehsalı olan təyyarənin tenderdəki mümkün rəqibləri arasında ABŞ-ın "Boeing" şirkəti tərəfindən hazırlanmış "T-7A Red Hawk", Cənubi Koreyada yerləşən Korea Aerokosmik Sənayenin (KAI) istehsalı olan "T-50" və mərkəzi İtaliyada yerləşən "Leonardo" şirkətinin "M-346" təlim təyyarələri yer alır.

TUSAŞ-dan verilən açıqlamada istehsalı tamamlanan ilk təyyarələrin Türkiyənin hərbi donanmasının inventarına daxil ediləcəyi bildirilir.

Hazırda Türkiyə Hərbi Hava Qüvvələrinin sifarişi ilə 17 milli "Hürjet" təlim təyyarəsinin istehsalına başlanılıb. Bu təyyarələrin 2026-cı ildə Orduya təhvil verilməsi nəzərdə tutulub. Bu proqram tamamlandıqdan sonra növbəti "Hürjet"lərin "Türk Ulduzları" aviaqrupuna verilməsi planlaşdırılır.

Qeyd edək ki, ilkin mərhələdə hərbi təlimlər üçün hazırlanan "Hürjet"in yüngül hücum təyyarəsi kimi inkişafı istiqamətində işlər görülür. Saatda sürəti 1700 kilometrədək olan təyyarə ehtiyac yaranacağı təqdirdə, 2 tondan artıq silah-sursat daşımağa qadirdir.

**AZƏRTAC-ın materialları əsasında**

# Vətənpərvərlik tədbirləri davam edir





Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən birlik və birləşmələrdə vətənpərvərlik tədbirlərinin keçirilməsi davam edir. Tədbirlər hərbi qulluqçuların asudə vaxtlarının mənalı, məzmunlu təşkilinə, əsgərlərin Vətənə, xalqa məhəbbət hissinin yüksəldilməsinə, milli-mənəvi dəyərlərinin dərindən öyrənilməsinə və geniş təbliğinə xidmət edir. Mərkəzin təbliğat-təşviqat qrupunun təşkil etdiyi vətənpərvərlik ruhunda silsilə tədbirlər şəxsi heyət tərəfindən ruh yüksəkliyi ilə qarşılanır. Elm, mədəniyyət, incəsənət xadimləri ilə təşkil olunan görüşlər hərbi qulluqçularda dünya görüşünün, elmi biliklərinin artırılması üçün xüsusi əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə keçirilən görüşlərdə qədim dövlətçilik, mübarizələrlə dolu tariximizdən, xalqımızın zəngin söz xəzinəsindən ətraflı bəhs olunur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mənalı, Vətənə, xalqa həsr olunmuş həyatı haqqında söhbətlər, disputlar böyük rəğbətlə qarşılanır.

Təbliğat-təşviqat qrupunun üzvləri Ulu Öndər Heydər Əliyevin qurucu_luq strategiyasını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tətəfindən xalqın böyük dəstəyi ilə uğurla davam etdirdiyini xüsusi vurğuladılar. Ölkəmiz təkcə regionda deyil dünya miqyasında inkişaf, tərəqqi yolu seçən, bəşəri dəyərləri yüksək qiymətləndirən ölkə kimi tanınır. 44 günlük Vətən müharibəsi bir daha dünyaya göstərdi ki, Azərbaycan xalqı vətənsevər, yenilməz, haqq-ədalətin bərpa edilməsinə nail olmağı bacaran xalqdır.

Mərkəzin əməkdaşları hərbçilər arasında müxtəlif bilik yarışları, müsabiqələr, idman oyunları təşkil etdilər. Hərbi qulluqçular yarış və müsabiqələrə, disputlara həvəs göstərdilər. Onlara "Əsgərə məktub" layihəsi çərçivəsində müxtəlif bölgələrdən ünvanlanan məktublar təqdim olundu. Məktublarda Vətən müdafiəçilərinə, ictimaiyyətin nümayəndələrinin xoş arzu və istəkləri ifadə olundu. Əsgərlər vallideynlərinə, ictimaiyyət nümayəndələrinə, Vətənə, xalqa sonsuz məhəbbət ruhlu məktublar ünvanladılar. Vətənpərvərlik tədbirləri Mərkəzin "Vətən uğrunda" ansamblının solistlərinin hazırladıqları zəngin konsert proqramı ilə başa çatdı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**



## Maraq dünyamız

## Günəş sisteminin ən hündür dağı - Olimp

Olimp (lat. Olympus Mons) Mars planetində yerləşən Günəş sisteminin ən hündür dağıdır. Sönmüş vulkan olan dağ, Yunanıstandakı Olimp dağının şərəfinə adlandırılıb (Yunan mifologiyasına görə, orada tanrılar yaşayırdı).

Dağın hündürlüyü 26 kilometrə yaxındır, bu göstərici ilə Olimp Yer kürəsinin ən böyük dağı olan Everesti üç dəfə üstələyir, dağın diametri təxminən 540 kilometrdir.

Olimp Mars planetinin ekvatorial Farsida bölgəsində yerləşir. Kosmik gəmilərin uçuşlarından əvvəl (Olimpin məhz dağ olduğunu göstərmişlər) bu yer astronomlara "Nix Olympica" ("Olimp qarları") kimi tanınırdı.

Olimp dağı 7 km yüksəkliyə malik kənarları boyunca dik yamaclara malikdir. Bu nəhəng uçurumların meydana gəlməsinin səbəbləri hələ inandırıcı bir izahat tapmamışdır. Bir çox elm adamı onların bir vaxtlar Marsda mövcud olan okean sayəsində əmələ gəldiyinə inanır. Bununla belə, elm dünyasının bir çox nümayəndəsi bu nəzəriyyəni təkzib edir, çünki günəş sistemi su ehtiyatları baxımından son dərəcə kasıbdır və bu, maye şəklindədir.

Olimp vulkanının hövzəsinin ölçüləri təəccüblüdür: vulkanik kalderasının uzunluğu 85 km, eni isə 60 km-dir. Kalderanın dərinliyi 3-km olub, 6 kraterdən ibarətdir. Hətta Yer kürəsinin ən böyük vulkanının diametri cəmi 6,5 kilometrdir. Buna görə də, Olimp təkcə yüksək deyil, həm də həqiqətən nəhəngdir.

Olimpin zirvəsində atmosfer təzyiqi, Mars səthinin orta səviyyəsinə tipik təzyiqin yalnız 2% -ni təşkil edir. Marsın səthində atmosfer təzyiqi 0,01 faizdən azdır. Olimp geniş ərazini tutmasına baxmayaraq, planetin səthindən tamamilə görülə bilmir. Buna görə, dağın tam profilini yalnız hava və orbitdən görmək mümkündür.

**"Azərbaycan Ordusu"**






# İdman

## "Paris-2024": Hidayət Heydərov Olimpiya çempionu adını qazanıb

Azərbaycan cüdoçusu Hidayət Heydərov "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında qızıl medal qazanıb.



73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız həlledici qarşılaşmada fransalı Con Benjamin Qaba ilə üz-üzə gəlib. Rəqibinə qızıl xal bölümündə ipponla qalib gələn cüdoçumuz Olimpiya çempionu adını qazanıb və "Paris-2024"də millimizin aktivinə ilk medalı yazdırıb.

Bununla da Hidayət Heydərov bu il həm Avropa, həm dünya, həm də Olimpiya çempionu adını qazanmaqla Azərbaycan idmanının tarixinə düşüb.

Olimpiadada mübarizəyə səkkizdəbir final mərhələsindən qoşulan cüdoçumuz birinci görüşdə İsrail idmançısı Tohar Butbulu, dördddəbir finalda isə kanadalı Artur Margelidonu ipponla məğlub edib. O, yarımfinalda kosovolu Akil Qyakovaya qalib gəlib.

## Olimpiya oyunlarında ilk dünya rekordu qeydə alınıb



Cənubi Koreyadan olan Lim Si Hyun 2024-cü ildə Parisdə keçirilən Olimpiya Oyunlarında kamandan oxatma üzrə yeni dünya rekordu müəyyənləşdirib.

Lim Si Hyun 2019-cu ilin dünya rekordunu qırıb.

21 yaşlı idmançı mümkün 720 xaldan 694 xal toplayaraq kvalifikasiya qazanıb.

Bu, Parisdə keçirilən cari Oyunlarda qeydə alınan ilk dünya rekordudur.

## Azərbaycanın bədii gimnastları Belarusda 4 medal qazanıblar



Azərbaycanın bədii gimnastları Belarusun Minsk şəhərində keçirilən "Crystal Rose - Helen Valery" adlı qran-pri yarışında 4 medal qazanıblar.

İki gün davam edən turnirdə milli komandanın 4 üzvü qüvvəsini sınayıb.

Gənclərin mübarizəsində Şəms Ağahüseynova 3 dəfə fəxri kürsüdə yer alıb. O, top (29,000), gürzlər (28,300) və lent (27,600) proqramlarının hər birində bürünc mükafata layiq görülüb. Yeniyetmələrin yarışında isə Azadə Atakişiyeva fərqlənib. İdmançı halqa ilə (29,450) hərəkətlərin icrasında üçüncü yeri tutub.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Polkovnik-leytenant Fərzəliyev Sadiq Fazil oğluna məxsus MN № 0043733 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ajidi İsmiran Əlisahib oğluna məxsus № 106847 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Həsənov Xəyal Ədalət oğluna məxsus AD № 0057913 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 473
Nüsxə 4623